ULUSLARARASI TÜRK DÜNYASI ARAŞTIRMALARI DERGİSİ

Cilt: 2 - Sayı: 3 - Temmuz 2019

# AZƏRBAYCAN RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ TƏDBİRLƏR- ƏRZAQ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏSİNİN HƏLLİ YOLLARI (2004-2014)

**Günel ADIGÖZƏLOVA***

**Xülasə**

2004-2014-cü illər Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında böyük dönüş nöqtəsi yaradan bir dövr hesab olunur. Prezident İlham Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra, inkişafda varislik saxlanmaqla, inkişafın yeni mərhələsi başlandı. Respublikada iqtisadi yüksəlişin təmin olunmasında neft sənayesinin və ondan əldə olunan gəlirlərin rolu böyükdür. Azərbaycan neftinin dünya bazarına çıxarılması ölkəyə daxil olan valyutanın miqdarının artması ilə nəticələnəcəyi əvvəlcədən proqnozlaşdırılmış və əldə olunacaq maliyyə vəsaitlərindən istifadənin səmərəliliyinin, şəffaflığının artırılması istiqamətində müəyyən hazırlıq işləri görülmüşdür. Ölkə başçısı dəfələrlə öz çıxışlarında bu barədə geniş söhbət açmış və yürüdülən siyasətin dövlətin deyil, ancaq xalqın milli mənafeyinə xidmət etdiyini bildirmişdir. Bu baxımdan qəbul olunan bütün proqramlar, qanunlar, tədbirlər planı birbaşa dövlətin nəzarəti altında həyata keçirilir. Müxtəlif istiqamətləri əhatə edən insan kapitalı sosial-iqtisadi, siyasi və hüquqi sahələrə ciddi təsir etmək imkanlarına malikdir. Yəni, qeyd olunan amillər insanın cəmiyyətdəki yerini və rolunu müəyyənləşdirməklə yanaşı, onun həyat səviyyəsini də səciyyələndirir. Təsadüfi deyildir ki, yüksək inkişaf etmiş ölkələrin milli sərvətində insan kapitalı əhəmiyyətli yer tutur. Hal-hazırda da bizim ölkə siyasətinin də əsasında bu durur. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev dəfələrlə öz çıxışlarında bu məsələyə toxunur, dövlətin hər zaman vətəndaşının yanında olduğunu, onu qoruduğunu vurğulayır. Xüsusən də yoxsulluq və işsizlik kimi problemlərin aktual olduğu bir dövrdə ərzaq təhlükəsizliyi və təminatı məsələsi dövlətin daim diqqət mərkəzindədir və bu sahədə islahatlar hələ də davam etməkdədir.

**Açar Sözlər:**Neft, kapital, investisiya, şirkət, saziş, iqtisadiyyat.

# SOCIO-ECONOMIC MEASURES IN THE REPUBLIC OF AZERBAIJAN-WAYS TO SOLVE THE PROBLEMS OF FOOD SECURITY (2004-2014)

**Abstract**

The four-year, European Union-funded project Improving Regional Food Security in the South Caucasus through National Strategies and Smallholder Production (IRFS) had the overall objective of contributing to improved food security and nutrition (FSN) in the South Caucasus, focusing on increasing the representation of smallholder farmers in policy decision making processes. 2004-2014 is considered to be a turning point in the socio-economic life of the Republic of Azerbaijan. After the arrival of President Ilham Aliyev to the country's leadership, a new stage of development started, with inheritance in development. The role of the oil industry and its revenue is crucial in ensuring economic growth in the republic. Certain preparatory work has been carried out to increase the efficiency and transparency of the use of predetermined and available financial resources that will result in the increase of the Azerbaijani currency to the world market. The head of

*Sumqayıt Dövlət Universitetinin Fəlsəfə, Sosiologiya və Politologiya kafedrasının müəllimi, doktorant.

state repeatedly spoke in his speeches on this issue and stated that the policy pursued served not only the state but also the national interests of the people. In this regard, all programs, laws and action plans adopted are directly under the control of the state. Human capital, covering various trends, has the potential to seriously affect socio-economic, political and legal spheres. It is no coincidence that human capital is of considerable importance in the national wealth of highly developed countries. At the moment, this is the basis of Azerbaijan's policy.
**Keywords**: Oil, capital, investment, company, agreement, economy.

## Giriş

Ərzaq təminatı və onun etibarlılığının dövlət tərəfindən təmin olunması iqtisadi və sosial sabitliyin və dayanıqlılığın əsas meyarıdır. Bu baxımdan dövlət bu məsələyə çox ciddi yanaşaraq, bu sahədə daima yeni yeni tədbirlərin keçirilməsinə çalışır. Nəinki Azərbaycanda, hətta bütün dünyanın ən qlobal problemlərindən birinə çevrilmişdir. Xüsusilə də, son illərdə enerji məhsullarının qiymətinin kəskin şəkildə ucuzlaşması, maliyyə bazarlarında tez-tez baş verən böhranlar, eləcə də dünyada əhalinin sayının artması və demoqrafik problemlər əhalinin ərzaq məhsullarına olan tələbatının artmasına və qiymət bahalığına səbəb olmuşdur. Bir sözlə, ərzaq qıtlığı yaxın gələcəkdə dünyanın əsas probleminə çevrilə bilər.

## 1. Müasir Azərbaycanda Yeniliklər

Müasir Azərbaycan dövlətinin də əsas önəm verdiyi problemlərdən birinə çevrilən bu məsələyə hələ ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev də ciddi təşəbbüs göstərmiş, bir sıra islahat və dəyişikliklər keçirməyə başlamışdır. 1993-cü illərin ortalarından Azərbaycan xalqının xahişi, təkidli tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra hələ ötən əsrin 70-80-ci illərində gərgin zəhməti, yüksək təşkilatçılığı və uzaqgörənliyi hesabına yaratdığı və qurduğu respublikanı işsizlikdən və yoxsulluqdan, siyasi-mənəvi böhrandan, dağınıq və çökmüş iqtisadi vəziyyətdən çıxartmaq üçün Azərbaycanın tarixinə unudulmaz və qəhrəmancasına səhifələr yazdı və yaratdı.Ən acınacaqlı vəziyyət isə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazimizin 20% - nin işğal olunması, bir milyon nəfərə qədər əhalinin yurd-yuvalarından didərgin düşməsi, müharibə xərcləri, çoxlu insan itkisi, daxili münaqişələrin dözülməz həddə olması idi. Vətəndaş müharibəsi vəziyyətinə düşmüş, parçalanmaq, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə dayanmış ölkə onun həyatına müdaxilə etmək və onu özündən asılı hala salmaq istəyən böyük dövlətlərin də maraq obyektinə çevrilmişdir. Respublikanın əlverişli coğrafi mövqeyi, kifayət qədər elmi-texniki və kadr potensialı, zəngin təbii ehtiyatları və əlverişli iqlim şəraiti, xalqı arxasınca apara biləcək dahi rəhbəri bütün bu çətinliklərdən çıxmağa kömək etdi (Abbasov, 2013: 23).

2001-ci ildə ölkə prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və bu proqram nəticəsində ilkin mərhələdə kənd təsərüffatı və ərzaq məhsullarının istehsalı keyfiyyət və kəmiyyət cəhətdən xeyli irəliləmişdi.

Daha sonra bu siyasət cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdi. Amma bununla belə, ərzaq məhsullarının yerli istehsal hesabına tam təminatı hələ ki, tam ödənilməmişdi.Xüsusilə də, dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik ölkəmizdə də ərzaq məhsullarının qiymətinə təsirsiz ötmədi. Daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının kompleks yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 2008-ci il 1may tarixində "2008-2015 –ci illər əhalinin ərzaq məhsulları ilə

etibarlı təminatı” na dair Dövlət Proqramı imzalandı (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2011: 31).

## 2. Ərzaq Təhlükəsizliyi Tədbirləri

Son illərin iqtisadi göstəriciləri onu göstərir ki, dövlətimiz makroiqtisadi sabitliyi qorumaqla, iqtisadi artıma görə dünyanın qabaqcıl ölkələri sırasındadır. Belə bir faktı misal göstərmək olar ki, 2007-ci ildəki ümumi daxili məhsul 2002-ci illə müqayisədə 2,6 dəfə artmışdır. Təbii ki, bu inkişaf göstəricisində həm neft, həm də qeyri-neft sektorunun payı danılmazdır. Təbii ki, yüksək iqtisadi inkişaf da əhalinin sosial rifahına təmin edir. Neftdən əldə olunan gəlirlər hesabına dövlətin iqtisadi-sosial əsasları möhkəmlənmiş, əhalinin işgüzar fəallığı artmış, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin təmin olunması kimi məsələlər öz həllini tapmağa başlamışdır. Bu baxımdan aqrar sektor və onun inkişaf perspektivləri müxtəlif səpkidə həyata keçirilmişdi. Ərzaq təminatını yaxşılaşdırmaq üçün birinci növbədə bu sahədə qanunvericilik bazasını təkmilləşdirmək və aqrar-sənaye kompleksini inkişaf etdirmək, torpaq islahatlarını keçirmək və daha çox yeni təcrübələrə əsaslanmaq lazım idi. 1999-cu ildən etibarən, kənd təsərüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, qalan vergilərdən azad olunmuşdur. Həyata keçirilmiş islahatlar nəticəsində işğal altında olan rayonlarda təsərrüfat subyektlərinə güzəştlər edilmiş, kredit borcları bağlanmış, kənd təsərrüfatının inkişafı üzrə Beynəlxalq Fond, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı kimi önəmli təşkilatların maddi və mənəvi dəstəyi ilə, ümumi dəyəri 158 milyon olan layihələr hazırlanmışdır, fermerlərə subsidiyaların verilməsi başlanılmış, Aqrolizinq Açıq Səhmdar Cəmiyyəti yaradılmış, lizinq yolu ilə texnika və gübrələrin verilməsinə başlanılmış, aqrar sahədə özəl bölməyə xüsusi yer verilmişdir (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 2009: 21).

Ölkəmizin ümumi torpaq fondu 8641,5 min hektar təşkil edir ki, bunun da 55 faizi əkin üçün yararlıdır. Əhali artımı, torpaqların qeyri-kənd təsərüffatı subyektlərinə satılması, torpaqların eroziyaya uğraması, Xəzər dənizinin səviyyəsinin qalxması, meliorasiya tədbirlərinin vaxtında aparılmaması, əkinçilik texnologiyasının köhnə üsullarla aparılması get-gede əkinə yararlı sahələrin azalmasına səbəb olur. Sudan istifadəyə gəlincə, isə Azərbaycan rrespublikasının içməli su ehtiyatları məhduddur. "Ölkənin yerüstü su ehtiyatlarının 30%-i daxili, 70%-i isə qonşu ölkələriin hesabına ödənilir. Hazırda su tutumu 268 milyon kubmetr olan Taxtakörpü və Taxtakörpü-Ceyranbatan su kanallarının tikintisi aparılır. Babək və Şərur rayonlarında suvarma-drenaj şəbəkələrinin və Araz çayı üzərindəki Bəhramtəpə hidroqovşağının təmir-bərpa işləri başlanmışdır. Ölkədə su ehtiyatlarının məhdudluğu sudan daha qənaətli formada istifadə edilməsini, müasir suvarma texnikası və texnologiyalarının tətbiqini tələb edir (Əliyev, 2009: 41).

Müasir dövrdə heyvandarlıq məhsullarının istehsalı sahəsinə xüsusi diqqət ayrılır. Təbii ki, bu görülən tədbirlərə baxmayaraq, əhalinin ət və südlə təminatı hələ də zəif səviyyədədir. Heyvandarlıq məhsullarının emalı şəəbəkəsinin genişləndirilməsi əsas vəzifələrdən biridir. Bunun üçün də ən vacib tədbirlərdən biri müasir tələblərə cavab verən, xammal bazasına yaaxın ərazilərdə ət və süd emal edən yeni müəssisələrin yaradılması və xammalın saxlanılması üçün soyuducuların tikilməsi üzrə özəl sektorun təklifləri dəyərləndirilməli və dəstəklənməlidir.

## 3.Ərzaq Təminatı Probleminin Həlli İstiqamətləri

Əhalinin ərzaqla etibarlı təminatı sahəsində müasir tələblərə cavab verən kadr potensialının yetişdirilməsi mühüm məsələlərdəndir. Azərbaycan Respublikasının ali məktəblərində 30, orta ixtisas 6, texiki peşə məktəblərində 23 ixtisas üzrə mütəxəssis hazırlanır. Bu sahə üçün baza təhsil müəssisəsi Azərbaycan Kənd Təsərüffatı Akademiyası hesab olunur. Xüsusilə də bitkiçilik məhsullarının saxlanılması və emalı texnologiyası, aqrar istehsalın iqtisadiyyatı və idarə edilməsi, marketinq, menecment kimi ixtisaslarda təhsil alan və hazılanan mütəxəssislər gələcək üçün çox lazımlıdırlar (Əliyev, 2010: 22).

Ərzaq məhsullarının istehsalının infrastruktur təminatısahəsində ən vacibi yol infrastruktudur. Nəqliyyatın təkmilləşdirilməsi, xüsusilə rayonlarası xidmətin yüksək səviyyədə olması vacib amildi ki, bu sahədə də tədbirlər görülür; Naxçıvan və Gəncə hava limanları yenidən qurularaq istifadəyə verilmiş, Lənkəran və Zaqatalada isə hava limanlarının tikintisinə başlanılmışdır. Su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi məqsədilə dövlət investisiya xərcləri hesabına və beynəlxalq maliyyə təşkilatlarını cəlb etməklə müəyyən layihələr həyata keçirilir.

Əhalinin etibarlı ərzaq təminatında sahibkarlıq vacib amillərdən biridir. sağlam işgüzarlıq və sahibkarlıq mühitinin formalaşması ölkə siyasətinin əsas aparıcı iqtisadi-sosial siyasət xəttidir. Həyata keçirilən tədbirlər nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin sayı 15669-a çatmışdır. Kənd təsərüffatı sahəsində sahibkarlıq fəaliyyətini genişləndirmək məqsədilə dövlət tərəfindən maliyyə dəstəyi həlledici rol oynuyur. Təbii ki, bu istehlak il-ildən artmaqdadır və bunun üçün müəyyən tədbirlər görülməlidir. Buna görə də kənd təsərüffatı və ərzaq məhsullarının istehsalı artırılmalı, yeni iş yerlərinin sayı çoxaldılmalı, əhalinin sosial müdafiəyə daha çox ehtiyacı ola qruplarının gəlirlərinin, minimum əməkhaqqı və pensiyaları artırılmalıdır. Bu səbəbdən də 2008-2015-ci illər Dövlət Proqramı çərçivəsində dövlət siyasətinin müəyyən prioritet istiqamətləri sırasında ərzaq məhsulları istehsalını maksimum səviyyədə artırmaq, ərzaq məhsullarının təhlükəsizlik və keyfiyyət göstəricilərini yüksəltmək, ərzaq təminatı sahəsində sahibkarlığı inkişaf etdirmək, ərzaq təminatının ixtisaslaşmış və institusional inkişafını təmin etmək və tədbirlər görmək kimi məsələlər ön plana çəkilmişdi (Həsənov, 2011: 51).

Ərzaq təminatının səmərəli bazar mexanizmi ondan ibarətdir ki, ölkə vətəndaşlarının hər biri istənilən zaman ərzaqla təmin olunma imkanına malik olsun. Bu imkan həm ictimai resursların aztəminatlı ailələrə birbaşa istiqamətlənməsi, həm də tələbin formalaşması vasitəsilə həyata keçiriləcəkdir. Ərzaq təminatı həm kəmiyyət, həm də keyfiyyət cəhətdən müasir tələblərə cavab verməli və ekoloji cəhətədn təmiz olmalıdır. Bunun üçün keyfiyyət və təhlükəsizliyə nəzarət edən sistem qurulmalıdır.Ərzaq təminatının ən mühüm və vacib elementlərindən biri də ehtimal olunan risklərin düzgün şəkildə idarə edilməsidir. Bu risklərin qarşısının alınması üçün dövlət ərzaq ehtiyatının müasir tələblər səviyyəsində idarə edilməsi təmin olunacaq, qabaqcıl sığorta mexanizmləri tətbiq olunacaq, ərzaq təminatı institusional formada inkişaf etdiriləcək, aqrar bölmənin elmi-kadr potensialı gücləndiriləcək, sahibkarlığın yeni inkişaf modelləri tətbiq olunacaq, dövlət tərəfindən maliyyə dəstəyi genişləndiriləcəkdir. Ərzaq təminatı ilə bağlı risklərin aradan qaldırılması dövlətin ən vacib problemlərindən biri olmuşdur. Bunun üçün fövqəladə vəziyyətlə əlaqədar ərzaq ehtiyatlarının təminatına dair qanunvericilik bazasının yaradılması, əsas ərzaq məhsulları üzrə dövlət ehtiyat fondunun yaradılması, fövqəladə halların qarşısının alınması üçün çevik maddi-texniki bazanın təşkil olunması kimi tədbirlər aparılır.

**4.Ərzaq Təminatı Məsələsinin Həllində Dövlətin Birbaşa Rolu**

2008-2015-ci illər Dövlət Proqramında nəzərdə tutulmuş tədbirləri həyata keçirmək üçün maliyyə mənbələri kimi birinci nöbvədə dövlət büdcəsi, prezidentin şəxsi ehtiyat fondu, büdcədənkənar fondlar, yerli büdcələr, yerli və xarici özəl birbaşa investisiyalar və digər qanunvericilikdən kənar olmayan qeyri-hökümət təşkilatlarını misal göstərə bilərik.

Cənab Prezident İlham Əliyev haqlı olaraq demişdi ki, indi artıq Azərbaycan üçün yeni dövr başlayır.Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununda deyilir: “Dövlətin iqtisadi potensialının tükənməsi, milli iqtisadiyyatın digər ölkələrdən maliyyə və texnoloji asılılığının yaranması, boru kəmərlərinin və digər kommunikasiyaların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin pozulması” təhlükə hesab edilir.Azərbaycanın enerji təhlükəsizliyi qlobal təhlükəsizliyin bir hissəsidir. Çünki enerji təhlükəsizliyi millilikdən daha çox qlobal sistemə daxildir. Dünya neft aclığı çəkir və bu aclıq ildən –ilə güclənərək qlobal problemə çevrilir. "Milli dövlətlər enerji siyasətini düzgün qurmalıdırlar ki, qlobal təhlükədən yan keçsinlər. İqtisadiyyatın qeyri-mütənasib inkişafı “Niderland sindromu” yaradır. Yaxud zəngin enerji ehtiyatlarına malik olan Nigeriya əhalisinin böyük hissəsi aclıq və səfalət içərisindədir (Naxçıvanlı, 2012: 43).

Enerji sahəsində təhlükəni aradan qaldırmaq üçün cavabdeh olan dövlət orqanları milli təhlükəsizliyin təmin olunması sistemini təşkil edirlər və milli təhlükəsizliyin təmin olunmasına görə məsuliyyət daşıyırlar. Enerji təhlükəsizliyinin təmin olunması vahid dövlət siyasətinə daxildir. Enerji təhlükəsizliyi ölkənin milli maraqlarına daxildir və milli təhlükəsizliyin başlıca hədəflərindən biridir. Digər tərəfdən , enerjidən əldə edilən gəlirin bir hissəsi insanların təminatına sərf adilir, təhsilin, elmin inkişafına yönəldilir. İnsanların hətrərəfli inkişafı üçün şərait yaradılır, onların hüquq və azadlıqları qorunur.

## 5.Ərzaq Təminatı Problemi: Neft və İnsan Kapitalı

Azərbaycan müstəqillik əldə etdikdən sonra 90-cı illərin əvvəllərindən bir çox çətinliklərlə üzləşmişdir. SSRİ-nin keçmiş respublikalarları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfıra enməsi, neft və qaz sənayesinin ağır böhran vəziyyətinə salınmışdır. Bütün bu çətinliklər maliyyə, texniki və digər problemlər aşkar edilmiş Azəri, Çıraq, Günəşli kimi yataqların işlənməsinə imkan vermirdi. Belə vəziyyətdə xalqın tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdan cənab Heydər Əliyev “neft Azərbaycanın milli sərvətidir” devizi ilə çıxış edərək respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmuşdur. Heydər Əliyevin yeni neft strategiyasının çox böyük uğurla reallaşması günümüzün də reallığına çevrilmişdir. Elə məhz onun nəticəsidir ki, Azərbaycanın neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin , iri investisiyalarının cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcılarının bazarına sürətlə çıxış təmin edildi, ölkə neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sistemi yaradıldı (Sosial Müavinətlər Haqqında Azərbaycan Respublikasının Qanunu, 2006: 11)

Yeni neft strategiyasının ən mühüm tərkibi hissələrindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ideyasının meydana qoyulması və onun reallığa çevrilməsidir. Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bugün müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətinin sahibi olmasının, iqtisadiyyatımızın dünya iqtisadiyyatına qovuşmasının, ölkəmizin 90-cı illərin əvvəlində başlanmış siyasi,,

iqtisadi və sosial böhranlardan çıxaraq dirçəlməsinin və ən əsası XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının rəmzidir."Haqlı olaraq, qeyd edilmişdir ki, 2005-2006-cı illərdən başlayaraq, neft layihələrinin gerçəkləşməsindən əldə edilən gəlir yüz milyonlarla hesablanacaqdır (Süleymanov və Zeynalov, 2009: 61).

Azərbaycanın xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi-Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsidir. Ölkənın xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi, beynəlxalq hüquq norması çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem nəinki təkcə Azərbaycana, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşların sabit həyat şəraitinə ciddi ziyan vurmuş, həm də keçən 15 ildən artıq bir dövrdə regionda dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarçıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir (Şəkərəliyev, 2009: 23).

**Nəticə**

Hazırda Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi həm Qafqazda, Avrasiya və Avropada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur. Bu mənada mürəkkəb geosiyasi məkanda yerləçən Azərbaycan özünün müəyyən etdiyi demokratik cəmiyyət, hüquqi və dünyəvi dövlət, dünyanın qabaqcıl siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya xəttini reallaşdırmaq üçün regionun və dünyanın güc mərkəzləri ilə münasibətlərə dair xüsusi düşünülmüş, ardıcıl həyata keçirilən milli təhlükəsizlik siyasətini həyata keçirir. Bu siyasət ilk növbədə xalqın sosial rifahını yüksəltməyə, yeni-yeni sosial-iqtisadi layihələri həyata keçirməyə stimul və şərait yaradır. Dövlətin apardığı bu istiqamətdə apardığı məqsədyönlü siyasət bugün də çox uğurla davam etdirilir.Azərbaycanın müasir beynəlxalq vəziyyəti xarici siyasət sahəsində onun hər hansı bir qütbə və yaxud istiqamətə açıq üstünlük verilməsini mümkünsüz edir, balanslaşdırılmış və tarazlı siyasi kurs seçilməsinişərtləndirir, çünki XX əsrin sonunda beynəlxalq aləmdə aparıcı güclərin geosiyasi və geostrateji maraqlarının kəskin rəqabəti və toqquşması fonunda dünyadakı iqtisadi və hərbi-siyasi durum yenicə suverenlik əldə etmiş, nisbətən zəif olan ölkələrin yürütdüyü müstəqil xarici siyasət yolunda çoxsaylı problemlər ortaya çıxarır. Dünyada öz ənənəvi təsir dairələri olan fövqəldövlətlər və müxtəlif dövlət qrupları yeni müstəqillik əldə etmiş ölkələrin inkişaf modelli seçməsi, beynəlxalq aləmdə siyasi istiqamətinin müəyyənləşdirlməsi məsələsində yüksək həssaslıq nümayiş etdirirlər.

Bu gün dünyanın sosial-iqtisadi durumuna nəzər yetirsək, görərik ki, ləğvi yolları axtarılan və bu istiqamətdə daima işlər görülən yoxsulluq, işsizlik kimi məsələlər nəinki, kasıb, inkişaf etməkdə olan , hətta yüksək inkişaf etmiş ölkələrdə də öz aktuallığını itirməyib. Bizim üçün müsbət məqam ondan ibarətdir ki, onların illərlə apardığı işi inkişafın yeni mərhələsində olan Azərbaycan kimi gənc dövlət qısa müddət ərzində ləğv etməyə çalışır. Düzdür, bu sahədə hələ müəyyən mənada görülməli işlər olsa da, ancaq cənab prezidentin rəhbərliyi, birbaşa nəzarəti altında həyata keçirilən siyasət öz müsbət nəticələrini verməkdədir. Bu da dövlətimizin zor gücünə deyil, humanizm, iqtidar-vətəndaş həmrəyliyi prinsiplərinə söykənən idarəetmə ənənəsinə malik olduğunu göstərir. Azərbaycan öz müstəqil siyasəti və inkişaf etmiş iqtisadiyyatı

ilə nəinki Qafqaz regionunda, hətta dünya dövlətləri arasında da tanınır. Azərbaycan bugün güclü dövlətdir, güclü orduya malikdir və vətəndaşları yüksək səviyyədə yaşayırlar. Bu isə Azərbaycanda işsizlik və yoxsulluğun minimum həddə olduğunu göstərir. Yaxın gələcəkdə bu aradan qaldırılacaq. Çünki bunun üçün Azərbaycanda hər şərait var.

**ƏDƏBİYYAT**


ABBASOV, İ. (2013). Azərbaycanın və Dünya Ölkələrinin Kənd Təsərüffatı, Bakı: Elm.

ƏLİYEV, İlham (2009). İnkişaf Məqsədimizdir, Bakı: Azərnəşr.

_____ (2010). İnkişaf Məqsədimizdir, Beşinci Kitab, Bakı: Azərnəşr.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ (2011). "Yeni iş yerləri" Statistik Məcmuə,İllik hesabat, Yanvar.

AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ (2009). Əmək və Sosial Problemlər, Elmi Əsərlər Toplusu, V Buraxılış, Bakı: Arxidey MMC.

HƏSƏNOV, R. (2011). Tənəzzüldən Stabilliyə,stabillikdən Tərəqqiyə Doğru Təkamülün Xüsusiyyətləri və Perspektivləri, Bakı : Azərnəşr.

NAXÇIVANLI, A. (2012). Şəxsiyyətin Qüdrəti, Bakı: Yazıçı.

SOSİAL MÜAVİNƏTLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU (2006). (7 fevral 2006-cı il, N-55-IIIQ), Qanunvericilik Toplusu, Maddə 76, Azərbaycan, 241-247 səh.

SÜLEYMANOV, E., ZEYNALOV, A. (2009).“Qlobal Maliyyə Böhranının Azərbaycan İqtisadiyyatına Təsiri”, Journal of Qafqaz University, N. 28, ss. 110-120.

ŞƏKƏRƏLİYEV, A.Ş. (2009). Dövlətin İqtisadi Siyasəti: Reallıqlar və Perspektivlər, Bakı: İqtisad Universiteti.